# Dövlət başçısına ümumxalq sevgisi



Bəşəriyyət kamillik yolunu əsas məqsəd seçərsə, ayrı-ayrı insanların, millətlərin, dövlətlərin bir-biri ilə savaşına, qarşılıqlı iddialarına, ədalətsizliklərə, müharibələrə son qoyular. Kamillik səviyyəsində olan insan da öz fəaliyyətini humanizm, ədalət, təmannasız xidmət prinsipləri üzərində qurar. Nitsşe kamil insanın təmannasız xidmətini yanan şamla müqayisə edərək yazır: "Şam özü üçün olduğundan daha çox, başqaları üçün işıqlıdır. Müdrik insan da o cürdür". Lazım olduğu qədər danışar, zamanın dəyərini gözəl anlayar, onu faydalı şəkildə idarə edər. Müzəffər sərkərdə, Ali Baş Komandan, dövlət başçısı, zəmanəmizin ən nüfuzlu liderlərindən biri, xalqının sevimlisi İlham Əliyev də gənc ikən kamilləşən, müdrikləşən Vətən oğludur!..

"Anam məni Azərbaycan üçün dünyaya gətirmişdir". Bu sözləri Heydər Əliyev demişdi, özünü bütünlüklə ölkəsinə, xalqına həsr etmiş bir insan, dövlət xadimi. Ailəsini, övladlarını canı qədər sevsə də, onun üçün Azərbaycan daha əfzəl idi. Övladlarını da öz ruhunda böyüdürdü: "Atam ailəmizdə həmişə sarsılmaz nüfuz sahibi, əsl ailə başçısı idi, biz onunla fəxr edirdik, ona heyran idik. Mənim siyasi və həyati dünyagörüşüm onun təsiri altında formalaşmışdır. O, mənim üçün ideal dövlət xadimi, insan və kişi idi...".

Əliyevlər ailəsinin bir qütbündə Heydər Əliyev vardısa, digər qütbündə Zərifə xanım dayanırdı, həyat eşqi, xeyirxahlığı, qayğıkeşliyi ilə. Ailəsinə dayaq idi, onun yükünün çoxunu da öz zərif çiyinlərinə götürmüşdü. İşinin çoxluğuna, cəmiyyətdə tutduğu yüksək mövqeyə baxmayaraq, həmişə birinci növbədə ailəsinin qayğıları ilə yaşayırdı. Qürur duyulacaq övladlar tərbiyə etmişdi, onlara çox bağlı idi.

**(davamı 7-ci səhifədə)**

(əvvəli 1-ci səhifədə)

# Dövlət başçısına ümumxalq sevgisi

Ümummilli liderimiz insanı riqqətə gətirən xatirələrin işığında ömür-gün yoldaşını belə xatırlayırdı: "...Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli müvəffəqiyyətlə çalışmağımda hesab edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində isə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib".

İlham Əliyev bax, belə bir ailədə, belə bir mühitdə böyüyüb tərbiyə almış, formalaşmışdı. Hər ailə kimi, bu ailənin də öz qanunları vardı, burada hər şey sadə, hay-küydən, təmtəraqdan uzaq, müdrikcəsinə yaşanırdı. Bu ailənin kiçik üzvləri də böyükləri kimi hələ uşaqlıqdan başa düşürdülər ki, əbədiyyət qarşısında ötəri olanlar, xırda nə varsa, hamısı məhv olub gedir, yalnız xeyirxahlıq qalır. Bu ailənin xeyir məclisləri, şənlikləri də ölçüdə-biçidə keçərdi.

Yaxşı xatırlayıram ki, qaçqın düşərgəsində məskunlaşan iki gəncin toy mərasimində iştirak edən ulu öndər bəylə gəlinin doğmalarına qoşulub rəqs edirdi. Gəncləri təbrik edəndə dediyi sözlər də yadımdadır. Deyirdi ki, tutduğum vəzifələrə görə bizə böyük toy məclisi təşkil etməyə icazə yox idi və mən də övladlarıma təmtəraqlı toy etməmişən. Əslində, elə bu, Əliyevlər ailəsinin ruhuna uyğun idi...

İlham Əliyev siyasət dünyasına atıldığı ilk gündən öz sadəliyilə diqqəti cəlb etmişdi. Qısa zamanda həm siyasi arenada, həm də xalq arasında yüksək nüfuz qazandı. Əlbəttə, siyasi mübarizə yolu şərəfli olduğu qədər də çətindir. Siyasətçi illərlə qazandığı nüfuzu bir səhv addımla və ya qərar qəbul etməklə itirə bilər. Elə buna görədir ki, İlham Əliyevin bütün çıxışlarında məntiq və ardıcıllıq gözlənilirdi. Boş vədlərdən, hay-küydən uzaq olan bu çıxışlar, fikirlər sadə xalq tərəfindən rəğbətlə qarşılanırdı. Hələ parlament seçkilərində millət vəkili seçildikdən sonra "Moskovski komsomolets" qəzetinə verdiyi müsahibədə demişdir: "Zənnimcə, mən burada daha çox fayda gətirəcəyəm. Hər halda, siyasət nə isə bir iş görmək üçün vasitədir. Adamların sənə inanması, hörmət bəsləməsi üçün gərək bir iş görəsən...".

O, millət vəkili kimi xalq üçün həqiqətən faydalı işlər görürdü. Təmsil olunduğu Qaradağ rayonunda onun köməyi ilə bir sıra sosial abadlıq işləri görüldü, yollar və su xətləri çəkildi, yeni iş yerləri açıldı, əlil və qaçqınlar üçün yaşayış evləri tikilib onların ixtiyarına verildi.

İlham Əliyevin diplomatik fəaliyyəti təkcə ölkə daxilində deyil, Azərbaycan hüdudlarından kənarda da böyük maraqla izlənilirdi. Azərbaycan siyasətində İlham Əliyev faktoru önəmli yer tuturdu. Xalq hələ o zaman öz xoşbəxt gələcəyini onunla birlikdə olmaqda görürdü. O, hər zaman xalqın içində oldu, onun dərdi-səri ilə maraqlandı, dövlət başçısı seçiləndən sonra isə bu bağlılıq, inam, etibar, etimad daha da artdı. Xalqla dövlət başçısı arasında bir doğmalıq yarandı.

İnsanın doğum günü onun özəl həyatının bir məqamıdır və bu gün həmişə doğmaların əhatəsində qeyd edilir.

Dövlət başçısının doğum gününün ictimaiyyət arasında keçirilməsi artıq gözəl bir ənənəyə çevrilib. Prezident İlham Əliyev bu görüşlərə isə, necə deyərlər, heç vaxt əliboş, "hədiyyəsiz" getmir. Gəlin, son 10 ilə qısaca nəzər salaq.

2011-ci ildə ölkə başçısının 50 yaşı tamam olurdu. Həmin il dekabrın 24-də o cəbhə xəttində olmuş, Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində məskunlaşan laçınlı məcburi köçkünlərlə görüşmüşdü. Oradakı çıxışında bildirmişdi ki, ad günlərini xüsusi olaraq qeyd etməyin tərəfdarı deyil, həmin gün xalqla birlikdə olmaq isə ona mənəvi zövq verir. Prezident həmçinin, həmin görüşdə demişdi ki, ad günlərini Şuşada qeyd etməyi arzulayır. On il sonra onun bu arzusu gerçəkləşdi, qalib ordunun Ali Baş Komandanı özünün 60 illiyini Şuşada keçirdi... 2012-ci il 24 dekabr. Prezidentin 51 yaşı tamam olurdu. Həmin gün dövlət başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva Sumqayıtdakı Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün tikilmiş 12 mərtəbəli 96 mənzilli yaşayış binasının açılış mərasimində iştirak etmişdilər. Dövlət başçısı burada yeni mənzillərlə yanaşı, Naxçıvan avtomobil zavodunun istehsalı olan 211 "Naz Lifan" markalı avtomobilləri də müharibə əlillərinə təqdim etmişdi.

2013-cü il dekabrın 24-də İlham Əliyev Bakının Yeni Ramana qəsəbəsində Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzinin yenidənqurmadan sonra açılışında iştirak etmişdi. Mərkəzlə tanışlıqdan sonra sağlamlıq imkanları məhdud olan gənclərlə də görüşüb onların qayğıları ilə maraqlanmış, problemlərin həlli ilə bağlı müvafiq göstərişlər vermişdi.

2014-cü il dekabrın 24-də Prezident İlham Əliyevin 53 yaşı tamam olurdu. Həmin gün ölkə başçısı və xanımı Mehriban Əliyeva "Bakı Ağ Şəhər"in inşası başa çatan ofis binası və "Bakı Ağ Şəhər" layihəsi çərçivəsində görülən digər işlərlə tanış olmuşdular. 2015-ci ildə isə ölkə başçısı və xanımı paytaxtın Nərimanov rayonunda gözdən əlillər üçün inşa olunmuş yaşayış binasının açılış mərasimində oldular, dövlət başçısı həmçinin yeni binanın sakinləri ilə də görüşdü.

Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev 60 illiyini yenə bölgədə, azad olunmuş torpaqlarda qeyd etdi, özü də bu dəfə qalib sərkərdə kimi... "Mən deyirdim ki, gün gələcək Azərbaycan bayrağı işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada dalğalanacaq və bu müqəddəs günü biz şəhidlərimizin qanı-canı hesabına yaşadıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

Hər zaman, bütün çıxışlarında olduğu kimi, Şuşadakı çıxışında da şəhidlərimizin ruhuna ehtiramını bildirən dövlət başçısı Qarabağ müharibəsində əldə edilmiş Zəfərdən sonra gücümüzün, nüfuzumuzun, təsir dairəmizin daha da genişləndiyini bir daha böyük qürurla söylədi, Hadrutda Müzəffər Azərbaycan ordusunun Ali Baş Komandanı kimi yeni silahlı birləşmə olan Komando Briqadasının hərbi hissəsinin açılışında iştirak etdiyini bildirdi. O, həmçinin dedi: "Azərbaycan xalqı yaxşı bilir ki, mən ad günlərimi qeyd etmirəm. Adətən ad günlərimə təsadüf edən günlərdə hansısa sosial obyektlərin açılışında iştirak edirəm, məcburi köçkünlərlə, şəhid ailələri ilə görüşürdüm... 50 illiyimi də məcburi köçkünlərlə bərabər qeyd etmişdim... 60 illiyimi isə Qarabağda - bu dəfə Şuşada keçirirəm... Bu gün azad Qarabağda, Şuşada və Hadrutda olarkən mən, - əgər belə demək mümkündürsə, - öz ad günümü qeyd edirəm...".

Öz çıxışında ulu öndərin ruhunu ehtiramla yad edən Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirən layiqli övlad və siyasi varis kimi bundan sonra bu torpaqlarda Azərbaycan xalqının əbədi yaşayacağını, Qarabağda Azərbaycan muğamının əbədi səslənəcəyini bir daha dünyanın gözü qarşısında bəyan etdi.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

Respublika .- 2021.- 28 dekabr.- S.1;7.